# Yaralı Qartal

**1940-cı ildə qədim Göyçə mahalının Daşkənd kəndində bir körpə dünyaya gəldi. Ailəyə özü boyda bir sevinc, bir xoşbəxtlik bəxş etdi. Uşaqlıq illəri ağır müharibə illərinə təsadüf etdi.**

**Hər cür acıları digərləri kimi o da yaşadı. Lakin onu yaşıdlarından bir keyfiyyət- şeirə, sənətə vurğunluq, nikbinlik hissinin qüvvətli olması fərqləndirirdi. Orta məktəbin yuxarı sinfində oxuyanda qonşu qızına oğrun nəzərlərlə baxar, xəlvəti kiçik şeirlər də yazardı. Məktəbi bitirdikdən sonra 1963-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə qəbul olunmuş, 1967-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. 1967-ci ildən 1972-ci ilədək doğma kəndlərində müəllimlik etmiş, 1972-1974-cü illərdə dəvətlə Mingəçevir şəhərində "Mingəcevir işıqları" qəzetində çalışmışdır. 1974-cü ildə yenidən doğma Göyçəyə qayıtmış, "Bolluq uğrunda", "Vardenis"qəzetlərində işləmişdir.**



**"Mirvaridir dənizlərim, göllərim**
**Əyilməzdir obalarım, ellərim".**

**Alqayıt**

Onun lirik, satirik şeirləri dillər əzbəri olmuş, lakin hamı tərəfindən birmənalı qarşılanmamışdır. Satirik ruhda yazdığı tənqidi şeirlərinə görə çox vaxt müəyyən təzyiqlərə məruz qalmışdır. Şair çoxşaxəli yaradıcılığa malikdir. "Qalx ayağa, Azərbaycan!" (2000), "Yaralı Qartal"(2006), "Seyid Bayram ocağı"(2007) şeirlər kitabı oxucuların ixtiyarına verilib. Şairin "Qalx ayağa, Azərbaycan" şeiri qüdrətli ordu gücünə bərabər qiymətli sənət əsəridir.

Təsadüfi deyil ki, şairin şeirlərində Göyçə, Borçalı doğmalığı, hər iki mahalın insanlarının dəfələrlə təzyiqlərə, təqiblərə məruz qaldıqları ürəkağrısı ilə qələmə alınmışdır.

*Başkeçiddən haray çəkən sellərin,*
*Ün ünləyən, ağı deyən dillərin,*
*Perik düşmüş, parçalanmış ellərin*
*Duman basmış, çiskin almış yolam de,*
*Dostum, məndən Borçalıya salam de.*





Öz doğma el-obasından didərgin düşən bu günahsız insanların köçkün həyatı yaşaması onun böyük şair qəlbini kövrəldir, dünya müsəlmanlarını öz ana yurdundan sıxışdıran fitnə-fəsad yuvası olan dövlətləri lənətləyir. Hər tərəfi cənnət olan Azərbaycanın gözəlliyi onun şair qəlbini riqqətə gətirir:

*Kükrəyən dənizdir, Alqayıt, qanın,*
*Olmayıb Vətənsiz, elsiz bir anın,*
*Hər yeri cənnətdir Azərbaycanın,*
*Adamın bu yurdda öləsi gəlir,*
*Mənim də xoşuma beləsi gəlir.*

Şeirlərində axıcılıq, həzinlik insan qəlbinin tellərinə toxunur, gözəllər məskəni yurdumun hər qarışını gəzmək, görmək, torpağını öpmək, qucmaq istəyirsən.

Çox əvvəllər də radio dalğalarında səsinə, şeirlərinə məftunluqla qulaq asmışdım Alqayıtın. Doğrusu onun şeirləri, sözlərinə bəstələnmiş mahnılar o qədər xoşuma gəlirdi ki, dinlədikcə bu sətirlərin müəllifinə ürəyimdə xoş bir qibtə yaranırdı.

Haçansa o böyük sənət sahibini yaxından görmək, dinləmək istəyirdim. Arzular gözlənilmədən həyata keçdikdə isə daha şirin və yaddaqalan olur. Haqqında az-çox məlumatım olsa da, bu el sənətkarını yaxından görmək, şeirlərini öz səsində eşitmək istəyirdim.

Şuşa Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Zahid Abbasovun qızının toy məclisində gördüm ilk dəfə bu əvəzedilməz el sənətkarını, nəğməkar şairi.

Zahid müəllim özü də sənətkarları çox sevdiyindən onun məclisi sanki adi toyu yox, gözəl musiqili ədəbi məclisi xatırladırdı. İndiki bəzi qulaqbatırıcı, yorucu toylardan fərqli olaraq, orada hər kəs həqiqi mənada istirahət etdi, zövq aldı.

Bu toy mənim üçün həm gözlənilməz, həm də çox sevindirici oldu. Məclisi özünəxas təbii dillə, lirik notlarla gözəlləşdirən aşıq-şairin şeirlərinə, yerli-yerində işlətdiyi atalar sözü və zərb - məsəllərə qulaq asdıqca doğma yurdumun belə gözəl, əvəzsiz sənətkarlar yetirdiyinə heyran olursan.

Ata-baba yurdu ulu Göyçənin gözəlliklərinin, doğma Qarabağın dilbər guşələrinin hələ də erməni işğalçılarının tapdağında qalması onun kövrək şair qəlbini riqqətə gətirir.

Başqa bir "Ağlamasın, neyləsin" şeirində doğma yurdun düşmənlərin əlində olmasından acı-acı gileylənir.

*Borçalıda bir şərbəti içən var,*
*Yay oxundan, nizələrdən keçən var*
*Başkeçiddən köç bağlayan, köçən var,*
*Ulu Göyçəm ağlamasın, neynəsin?*

Obasından, oymağından aralı düşən, od-ocağı sönən yurddaşlarından yanıqlı-yanıqlı söz açan şair Alqayıt elə bir diyarda dünyaya göz açıb ki, köpüklü çaylarımızın zümzüməsi, Göyçə mahalının gözəlliyi, insanların qonaqpərvərliyi əvvəllər Aşıq Alının, Aşıq Ələsgərin şeirlərində də gözəl əks olunub. Alqayıtın şeirlərində dağ əzəməti, dağ vüqarı əks olunub, çünki şair özü dağlar oğlu, dağ əzəmətli bir insandır.

Sevindirici haldır ki, şairin şeirlərindən qanadlanıb, onun ustalığından bəhrələnən onlarla aşıq şairlər də var. Aşıq Göyçəli, Aşıq Əşrəf, Aşıq Tofiq Abdullayev və başqalarının şeirləri bu gün oxucuların məhəbbətini qazanıb. Tofiq Abdullayevin "Yerindəmi?" şeiri Alqayıtın "Qartal" şeirinə xitabən yazılmışdır.

*Zirvələrdə hay qoparıb,*
*Gəz Göyçəni dolan, Qartal!*
*Sərt qayadan qıy qoparıb,*



*Bircə anlıq dayan, Qartal,*
*De, unudum dərdi, qəmi,*
*Ulu Göyçə yerindəmi?*

Bu gün düşmən tapdağında olan torpaqlarımız hər kəs kimi şairləri də rahat buraxmır, yaltaq, ikiüzlü düşmənə olan qatı nifrəti birə-on artırır. Göyçə mahalı erməni təcavüzünə rast gələn ilk qurbanlardan olub. Qaçqınlıq, köçkünlük yazıldı çoxlarının taleyinə.

Nə yazıq ki, biz hələ də bu ağrıdan, acıdan qurtara bilməmişik. Lakin inanırıq ki, belə ölməz sənətkarlar yetişdirən torpaqların işğalı uzun sürməyəcək. Doğma torpaqlarımız tezliklə düşmən əsarətindən qurtulacaq. Alqayıtın "Qalx ayağa, Azərbaycan!" şeirinin motivləri ilə düşmənə qarşı olan nifrətimizi bir daha bildirəcək, torpaqlarımızı azad edəcəyik.

Yəqin ki, o gün uzaqda deyil, biz azadlıq günəşinin doğduğunu doğma Göyçəmizdə, dilbər Qarabağımızda görəcəyik.

Şair Azərbaycanın hər yerini qarış-qarış gəzmiş, bu ulu yurdun, torpağın hər yerində hörmətlə qarşılanmışdır. Qədim Gəncə torpağında qarşılaşdığı bir hadisə onun özünü də heyrətə gətirmişdir.

Dostu Mais müəllimlə şəhərdə heyvanxanaya gedərkən orada gördüyü mənzərə - üç qəfəsdən birincisində xallı bəbir, ikincidə şir, üçüncüdə isə pələng və şirin qorxusundan qəfəsin küncünə qısılan zavallı maralı görən şairin bu mənzərəyə dözməyərək "Nə bilmək olur?" şeirini deməsi onun insanpərvərliyini, həyatın müəyyən qanunlarına qarşı barışmazlığını qabarıq şəkildə göstərir:

***Kim zildən oxursa, sən dayan pəsdə,***
***Zəmanə bəd gəlib, həqiqət üstə.***
***Maral da qəfəsdə, şir də qəfəsdə,***
***Qan tökən vəhşimi nə bilmək olar?***

Şair filosofyana düşünür: pələng də vəhşidir, şir də vəhşidir, onların qəfəsə salınması təbiidir. Bəs maralın günahı nədir, qəfəsə salınır? Budur həyatın ziddiyyəti-qanunauyğunsuzluğu. Allahın yaratdığı canlılardan ən ulusu, ən şərəflisi insandır. Maddi nemətləri hasil edən də, əzəmətli binaları tikən də, kosmosu fəth edən də insanlardır. Bir-birinə xəyanət edən, qanlı müharibələri də törədən məhz insanlardır.

**Yaddaqalan şeirlər müəllifi şair-nəğməkar Alqayıtı bütün oxucular adından təbrik edir, ona həyatda ən gözəl nemət olan cansağlığı, çaylar kimin coşqun olmağı, heç vaxt qələminin yorulmamasını, ən əsası oxucu diqqətində daim yaşamasını arzulayıram.**

**Elmira MUSAQIZI**

